№ 11 (2045) 15 fevral 2020-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR

# Əskipara-işğal edilmiş ərazi və abidələr

**Bildiyimiz kimi, hər bir xalqın mədəni irsi onun sərvətidir. Ulu babalarımızın bizə yadigar qoyduğu tarixi abidələrimiz xalqımızın qədim mədəniyyətinin göstəricisidir. Çünki hər bir tarixi abidə məxsus olduğu dövrün mədəni mühitini, təfəkkür və düşüncə tərzini özündə yaşadır. Çox təəssüf ki, qoruğun "Yuxarı Əskipara" filialının ərazisinə daxil olan çox sayda tarixi abidələrimiz 28 ildir erməni vandalizminin qurbanına çevrilib. İşğal altında qalan abidələr erməni işğalçıları tərəfindən dağıdılıb, məhv edilməkdədir.**

Qazax rayonunun Yuxarı Əskipara (08.06.1992) və Aşağı Əskipara (14.06.1992) kəndləri Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir.

Yuxarı Əskipara kəndi - dağətəyi ərazidədir. Keçmiş adı Əskiparadır. Ondan yaranan yeni məntəqə Aşağı Əskipara, əvvəlki kənd isə Yuxarı Əskipara adlandırılmışdır. Azərbaycan dilindəki "əski" (köhnə, qədim) və "para" (yer, kənd, hissə) sözlərindən ibarət olub, "köhnə, qədim kənd" mənasındadır. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş kəndin bütün tarixi mədəniyyət abidələri dağıdılaraq yandırılıb. Yuxarı Əskipara və Aşağı Əskipara kəndlərində dövlət qeydiyyatına götürülmüş 14, qeydiyyata alınmamış onlarla abidəmiz var ki, hal-hazırda işğal altındadır və bu abidələrin vəziyyətindən məlumatımız yoxdur.

Qazax rayonunundan 35 km aralı məsafədə yerləşən Yuxarı Əskipara kəndi və onun ətrafı tarixi abidələrlə zəngindir. 1949-50-ci illərdə qədim abidələri öyrənmək üçün təşkil edilmiş xüsusi elmi heyət bu ərazilərdə V-VI əsrlərə aid edilən şəhərcik qalıqları aşkar etmişdirlər. Daş Salahlı kəndindəki Şiş qayanın ətrafındakı Xalxal şəhərinin bir hissəsi də Şəhərgah adı ilə Yuxarı Əskipara kəndində 5852 inventar №-si ilə orta əsrlər arxeoloji abidə kimi qeydiyyata alınmışdır. Tədqiqatlar zamanı məlum olmuşdur ki, Yuxarı Əskipara kəndindəki evlərin, tikililərin bir çoxu qədim yaşayış məskənlərinin üzərində tikilmişdir. Burada tarixi tam bəlli olmayan qədim dövrləri əhatə edən böyük şəhərgah olmuşdur. Karvan yolu bu ərazidən keçərmiş. Şəhər-qalanın iç üzündə albanlara məxsus əlifba və bəzəklərlə olan qəbir daşları, həmçinin tikililərdən düşmüş daşların qalıqları varmış. Çox təəssüf ki, qonşu ermənilər müxtəlif bəhanələrlə həmin daşları da, şəhər yerindən çıxan antik əşyaları da ələ keçirib aparmışlar.

Digər işğal altında qeydiyyata götürülmüş abidələrimiz bunlardır:

**Xalxal şəhərinin yeri.** inv.1256. Xalxal şəhəri antik dövr və ilk orta əsrləri əhatə edir. Daşsalahlı kəndi Avey dağında Şiş qaya dağının ətrafında yerləşir. Şəhərin bir hissəsi isə Coğaz çayının vadisindən Əskipara kəndinə qədər uzanır. Çünki, mütəxəssislərin bəzisi Xalxal şəhərini Yuxarı Əskiparanın yerində, bəzisi Təpədöy çayı ilə Dəli Kürün qovuşduqları yerdə, bəzisi isə Qızıl qaya ətraflarında olduğunu iddia edir. Dövrünün ən inkişaf etmiş şəhəri olmuşdur. Bu şəhərə el arasında "Lalə" şəhəri də deyilirmiş. Alban çarlığının iqamətgahı və Albaniyanın paytaxtı olmuşdur. Avey dağı ətrafı, Şiş qaya və Qızıl qayanın yaxınlığında qədim şəhər yeri və alban qəbiristanlığı aşkar edilmişdir ki, tarixçi -arxeoloqlardan: Firuzə Muradova, Cəfərqulu Rüstəmov, Şota Saleh və digər mütəxəssislər buranı tarixi Xalxal (Lalə) şəhərinin xarabalığı hesab edirlər. Deyilənlərə görə, şəhər-qalanın ətrafında gözətçi məntəqələri və bu məntəqələri birləşdirən yeraltı yollar varmış. Xarabalıqlarda aparılmış qazıntılar zamanı xırman və dəyirman yerləri müəyyənləşdirilmiş, hamam, bazar, yaşayış evi və feodal qəsrlərinin qalıqları tapılmışdır.

**Məbəd:** inventar № si 281. Ölkə əhəmiyyətli memarlıq abidəsidir. Qazax rayonunun Əskipara kəndində V-VIII əsrlərdə tikilmişdir. Qafqaz Albaniyasının mədəni irsinə aid olan məbəd qırmızı tuf daşdan dördkünc planda inşa edilib və möhtəşəm görünüşə malikdir. Məbədin divarlarının bir neçə yerində böyük alban xaçı həkk olunub ki, bu da məbədin albanlara məxsusluğunu sübut edir. Bu məbəd meşədə, əlçatmaz dağlıq yerdə yerləşmişdir. Kompleks təqribən 2,5 hektar ərazini tutur və divarlarla əhatələnmişdir. Yüksək mövqedə



yerləşmiş əsas tikililər kompleksin qalan hissəsindən divarla ayrılmışdır. Bu, özünəməxsus içqala, iqamətgahdır. Kompleksin divarları və qülləri iri çay daşlarından ucaldılmışdır, bəzi hissələri kifayət dərəcədə yaxşı mühafizə edilmişdir. Güman edilir ki, içqalalı kompleks Alban dövlətinin başçıları olmuş böyük Mihrani hökmdarlarının iqamətgahı idi. Albaniya hökmdarlarının qış iqamətgahı olmuş Xalxal şəhərinin məhz bu yerdə lokallaşdırılması bunu təsdiq edə bilər. Buna görə də kompleksin hələ V əsrdə yarandığını ehtimal etmək olar. Kərpic texnikasının xarakteri və memarlıq formalarının bəzi xüsusiyyətlərinə görə isə əsas binanı XI əsrə aid etmək mümkündür. Əsas bina - məbəd diqqəti daha çox cəlb edir. Məbəd plan baxımından düzbucaqlıdır. Abidənin mühafizə olunmuş fraqmentləri təsdiq edir ki, o mühüm memarlıq əsəri idi. Bina yaxşı bişirilmiş 24x22x4 santimetr ölçülü kvadrat kərpiclərdən ucaldılmışdır. Abidənin memarlıq detalları da qismən kərpiclərdən (mərkəzi tağın əhatələnməsi), karnizlər isə yarımnəbati oyma naxışlı yonulmuş daşlardan hazırlanmışdır. Binanın memarlıq həllində divarların tağlama ilə işlənməsi aparıcı əhəmiyyətə malikdir. Bu üsul baş fasadda alaqapıya keçir. Alaqapı daha geniş və daha uca tağla bəzənmişdir. Güman etmək olar ki, tağlar yarımdairəvi olmuşlar. Binanın daxilində yan otağın tağının çatmalı cizgiləri aydın surətdə izlənməkdədir.

**Yeraltı yol.** Inventar № si 1278. XIV əsrə aiddir. Ölkə əhəmiyyətli, arxeoloji abidədir. Qazax rayonunun Yuxarı Əskipara kəndində olubdur. XVII əsrə aid edilən Qüllənin döşəməsindən başlayıbdır, amma hansı istiqamətə getdiyi məlum olmayıbdır.

**Yeraltı su kəməri.** Inventar №si 1279. XII əsrə aiddir. Ölkə əhəmiyyətli, arxeoloji abidədir. Qazax rayonunun Yuxarı Əskipara kəndində Keçi damı deyilən dağın zirvəsində yerləşib. Diametri 3metr, dərinliyi də 3 metr olan quyu-anbardan ibarət olub. Çıxışı və girişi məlum olmayan anbarın divarları çiy kərpiclə hörülüb. Quyunun dibində hər zaman içməli soyuq su olubdur. Nə qədər su götürülsə də öz səviyyəsini itirməyibdir.

**Qüllə.** Inventar № si 4518. XVII əsrə aid edilir. Yerli əhəmiyyətli, memarlıq abidəsidir. Adına Əskipara qalası da deyirlər, Dördkünc qala da. Coğaz çayının sahilində ucaldılmış bu çoxmərtəbəli qala gözətçixana olub.

Düşünülüb qoyulmuş pəncərələr, müşahidə dəlikləri, xəbərdaredici tonqal yerləri bunu bir daha təsdiq edir. Planda qala kvadrat şəklindədir.

Onun hər bir tərəfinin uzunluğu 8 m. təşkil edir. Qala çay daşından çox səliqə ilə hörülüb. Bişmiş qırmızı kərpicdən kəmər-naxışları var. Mərtəbə arası bağları ağacdan imiş. Həyətində köməkçi binalar olub. Memarlıq və mühəndislik baxımından tikili bölgəyə məxsus inşaat üslubunda ucalmışdır.

**Qatır körpüsü.** Inventar №si 4519. XII-XIII əsr. Yerli əhəmiyyətli, memarlıq abidəsidir. Əskipara çayının üzərindən atılaraq Yuxarı Əskipara kəndi yaxınlığında tikilmişdir. Körpünün uzunluğu 7,3 m, mərkəzi hissəsinin eni 2,7 m ümumu hündürlüyü isə tağ yerindən su səthinə qədər 5,8 m təşkil edir. Körpü bir tağlı olaraq qaya daşlarından inşa olunmuşdur. Aşırımın ümumi görkəmi yarımçevrə şəkillidir. Onun keçid hissəsinin üst örtüyü torpaqdan olub.

**Kazım körpüsü.** Inventar №si 4521. Yerli əhəmiyyətli, memarlıq abidəsidir. Əskipara çayının qolu üzərindən atılaraq Yuxarı Əskipara kəndi yaxınlığında qurulmuşdur. Onun uzunluğu 3,4 m, mərkəzi hissəsinin eni 5,8 m ümumu hündürlüyü isə 5 m. təşkil edir. Körpü bir aşırımlıdır. Aşırımın ümumi görkəmi yarımçevrə şəkillidir. Körpünün özülünü qayadan çapılmış daşlar təşkil etdiyi halda üst hissəsi kərpicdən hörülmüşdür. Onun keçid hissəsinin üst örtüyü torpaq olub.

**Qulucanlı körpüsü.** Inventar № 4522. Yerli əhəmiyyətli, memarlıq abidəsidir. Dərədən axan xırda dağ çayının üzərindədir. Tikinti materialı çal daşlardan ibarət və bir tağlı olubdur.

**Hamam qalıqları.** Inventar № 4523. Yerli əhəmiyyətli, memarlıq abidəsidir. Yuxarı Əskiparada torpaqdan müalicəvi su hesab olunan isti su çıxırmış. Həmin ərazilərdə təxminən 3 hamam olubdur. Onlardan 2-si tamamilə uçub. Birinin yarı hissəsi qalıb. Uzunluğu 10 m., eni 5m., iki otaqdan ibarət olub.

Biri ümumi hamam, o biri hissədə hörükdən 10-a qədər vanna olub. Burada balaca su hovuzu da olub. Hovuza pulləkənlərlə aşağı düşülür.

Saxsı turbalar vasitəsi ilə gələn su hovuza tökülür və buradan müalicə vasitəsilə istifadə edilirmiş. Cogaz çayının sahilində 7 su dəyirmanın qalıqları indi də durmaqdadır.

**Koroğlu qalası qülləsi.** Inventar № si 4524. Yerli əhəmiyyətli, memarlıq abidəsidir. Yuxarı Əskipara kəndindədir. Hal-hazırda abidə ermənilərin işğalı altındadır.

**Türbə.** Inventar № 4525. Yerli əhəmiyyətli, memarlıq abidəsidir. Yuxarı Əskipara kəndindədir. Dairəvi formada olub. İçərisində iki qəbir olubdur ki, şəxsiyyəti məlum olmayan bu qəbirlərin üzərində ərəb əlifbası ilə yazılar yazılmışdır.

Şəhərgah ərazisində XIV əsrlərə aid edilən Yeraltı yol (inventar №-si 1278), Yeraltı su kəməri (inventar №-si1279) qalıqları aşkar edilmişdir. Bunlardan başqa kənd ərazisində Qızıl Hacılı körpüsü (inventar №-si 4520), Qulucanlı körpüsü (inventar №-si 4522), Koroğlu qalası qülləsi (inventar №-si 4524), Türbə (inventar №-si 4525), kimi qiymətli abidələr qeydiyyata alınmışdır ki, bu günkü gün həmin abidələrin vəziyyətindən məlumatımız yoxdur. Bununla yanaşı, Yuxarı Əskipara kəndi ilə qonşu olan Aşağı Əskipara kəndində də Dəyirman (inventar №-si 4532), Kilsə (inventar №-si 4533) olan abidələr qeydiyyata alınmışdır. Hər iki kənd hal-hazırda işğal altındadır.

Qeydiyyata alınmayan abidələrdən biri də Qalakənd Qalası" məbəd kompleksidir. Bu məbəd kompleksi Yuxarı Əskipara kəndində, Coğaz çayının sağ sahilində yerləşir.

Bəzi fərziyyələrə əsasən bura Qafqaz Albaniyası hökmdarlarının iqamətgahlarından biri olmuşdur. Kompleks təxminən 2,5 ha ərazidə yerləşərək ikiqat divarla əhatə olunmuşdur.

Divarlar arasında məsafə təxminən 12 m-ə yaxındır. Divarlar yerin relyefi ilə uzlaşdırılaraq strateji baxımdan çox mükəmməl bir tərzdə həll olunmuşdur. 1970-ci illərdə bu kompleksdə tədqiqat işləri aparılan zaman artıq məbəd və kompleksin bir çox hissəsi itirilmişdir. Alimlərin qənaətinə görə kompleksin ucaldılma tarixi VI-IX əsrlərə təsadüf olunur.

**Ən böyük arzumuz torpaqlarımızın qaytarılması və öz dədə-baba yurdundan didərgin düşən bütün qaçqın və məcburi köçkünlərimizin doğma yurdlarına qayıtmasıdır. İnanırıq ki, tezliklə torpaqlarımızla birlikdə abidələrimiz də erməni vandallarından azad olacaqdır.**



**Növrəstə Binnətova, "Avey" Dövlət Tarix-Mədəniyyət qoruğunun "Yuxarı Əskipara" filialının müdiri**